Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2024-cü il "18"may 273s nömrəli
Sərəncamı ilə **təsdiq edilmişdir.**

**Elektrik enerjisi bazarı elementlərinin mərhələli tətbiqi ilə bağlı**

# TƏDBİRLƏR PLANI

| **Tədbirin adı** | **Əsas icraçı orqan (qurum)** | **Digər icraçılar** | **İcra müddəti** | **Nəticə indikatorları** | | |
|---|---|---|---|---|---|---|
| | | | | **ilkin nəticələr** | **aralıq nəticələr** | **yekun nəticələr** |
| **Prioritet 1. "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının 2023-cü il 11 aprel tarixli 858-VIQ nömrəli Qanununun (bundan sonra - Qanun) 42.1.1-ci maddəsinə uyğun olaraq birinci mərhələdə (2024-cü il yanvarın 1-dən 2025-ci il iyunun 30-dək) tədbirlərin həyata keçirilməsi** | | | | | | |
| **Tədbir 1.1.** Elektrik enerjisi bazarı elementlərinin mərhələli tətbiqi ilə bağlı Koordinasiya Şurasının və alt işçi qruplarının yaradılması barədə təkliflərin verilməsi | Energetika Nazirliyi | İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, Azərbaycan İnvestisiya Holdinqi, "Azərenerji" ASC, "Azərişıq" ASC | 2024-cü il 1 iyul - 1 noyabr | Təkliflərin hazırlanması və təqdim edilməsi | Koordinasiya Şurasının və alt işçi qrupların yaradılması | Koordinasiya Şurası və alt işçi qrupları tərəfindən elektrik enerjisi bazarı elementlərinin mərhələli tətbiqi ilə bağlı işlərin aparılması |
| **Tədbir 1.2.** Ötürücü sistem operatorunun mərkəzi operativ-dispetçer xidmətinin ixtisaslaşmış bölməsi tərəfindən elektrik enerjisi istehsalının iqtisadi optimallaşdırılması məqsədilə | "Azərenerji" ASC | Energetika Nazirliyinin tabeliyində Enerji Məsələlərini | 2025-ci il 1 yanvar - 30 iyun | Proqram təminatının və kadr potensialının formalaşdırılması üçün maliyyə vəsaiti ayrılması | Proqram təminatının və kadr potensialının formalaşdırılması üçün məsləhətçi | Proqram təminatının tətbiqi və kadr potensialının gücləndirilməsi |

| Tədbirin adı | Əsas icraçı orqan (qurum) | Digər icraçılar | İcra müddəti | Nəticə indikatorları | | |
|---|---|---|---|---|---|---|
| | | | | ilkin nəticələr | aralıq nəticələr | yekun nəticələr |
| proqram təminatının və kadr potensialının formalaşdırılması | | Tənzimləmə Agentliyi | | | şirkətlərin cəlb olunması | |
| **Tədbir 1.3.** “Azərişıq” ASC-nin tabeliyində elektrik enerjisinin paylanması və təchizatı fəaliyyətlərini həyata keçirən ayrıca hüquqi şəxslərin yaradılması üçün “Azərişıq” ASC-nin strukturunun yenidən təsdiq edilməsi barədə təkliflərin təqdim olunması | Energetika Nazirliyi | İqtisadiyyat Nazirliyi, Azərbaycan İnvestisiya Holdinqi, “Azərişıq” ASC | 2025-ci il 1 yanvar - 30 iyun | Hüquqi akt layihəsinin hazırlanması | Hüquqi akt layihəsinin razılaşdırılması | Hüquqi akt layihəsinin təqdim edilməsi |
| **Tədbir 1.4.** Elektrik enerjisinin ötürülməsi, elektrik enerjisinin topdan və pərakəndə satış qiymətlərinin (tariflərinin) (ikitərəfli müqavilələrlə satılan elektrik enerjisinin qiyməti istisna olmaqla), habelə ötürücü və paylayıcı şəbəkələrə qoşulma xidmətlərinin qiymətlərinin tənzimlənməsi | Tarif (qiymət) Şurası | İqtisadiyyat Nazirliyi, Energetika Nazirliyi, Maliyyə Nazirliyi, “Azərenerji” ASC, “Azərişıq” ASC | 2024-cü il 1 iyul - 31 dekabr | Qiymətlərə (tariflərə) dair təkliflərin verilməsi | Qiymətlərə (tariflərə) dair təkliflərin müzakirəsi | Qiymətlərin (tariflərin) müəyyən edilməsi |
| **Tədbir 1.5.** Aşağıdakı birtipli müqavilələrin təsdiq edilməsi:<br>1. ötürmə xidmətlərinin göstərilməsi üçün ötürücü sistem operatoru ilə bağlanılan müqavilə;<br>2. paylanma xidmətlərinin göstərilməsi üçün paylayıcı sistem operatoru ilə bağlanılan müqavilə;<br>3. ötürücü şəbəkəyə qoşulmaq üçün ötürücü sistem operatoru ilə bağlanılan qoşulma müqaviləsi; | Energetika Nazirliyi | Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, “Azərenerji” ASC, “Azərişıq” ASC | 2025-ci il 1 yanvar - 30 iyun | Müqavilə layihələrinin hazırlanması | Müqavilə layihələrinin razılaşdırılması | Müqavilələrin təsdiq edilməsi |

| Tədbirin adı | Əsas icraçı orqan (qurum) | Digər icraçılar | İcra müddəti | Nəticə indikatorları | | |
|---|---|---|---|---|---|---|
| | | | | ilkin nəticələr | aralıq nəticələr | yekun nəticələr |
| 4. paylayıcı şəbəkəyə qoşulmaq üçün paylayıcı sistem operatoru ilə bağlanılan qoşulma müqaviləsi;<br>5. elektrik enerjisinin səlahiyyətli təchizatçı tərəfindən istehlakçıya təchizatı müqaviləsi;<br>6. elektrik enerjisinin sərbəst isteh-lakçıya təchizatı müqaviləsi | | | | | | |
| **Tədbir 1.6.** İkinci mərhələ üçün nəzərdə tutulan müvəqqəti topdan-satış bazarı qaydalarının təsdiq edilməsi | Energetika Nazirliyi | Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, “Azərenerji” ASC | 2025-ci il 1 yanvar - 30 iyun | Müvəqqəti topdansatış bazarı qaydalarının layihəsinin hazırlanması | Müvəqqəti topdansatış bazarı qaydalarının layihəsinin razılaşdırılması | Müvəqqəti topdansatış bazarı qaydalarının təsdiq edilməsi |
| **Tədbir 1.7.** Qanunun 1.1.53-cü və 1.1.54-cü maddələrinə uyğun olaraq ötürücü sistem operatorunun balan-sında olan 110 kV-dək gərginlikli transformator yarımstansiyalarının və elektrik verilişi xətlərinin “Azərişıq” ASC-nin balansına verilməsi üçün tədbirlərin həyata keçirilməsi | “Azərenerji” ASC, “Azərişıq” ASC | İqtisadiyyat Nazirliyi, Energetika Nazirliyi | 2025-ci il 1 yanvar - 30 iyun | Təhvil-təslim komissiyasının yaradılması | Təhvil-təslim komissiyası tərəfindən inventarizasiya və təhvil-təslim işlərinin həyata keçirilməsi | Təhvil-təslim işlərinin nəticələrinin rəsmiləşdirilməsi |
| **Tədbir 1.8.** Qanunun 10-cu maddə-sində nəzərdə tutulan tənzimləmə haqqının Energetika Nazirliyinin tabeliyində Enerji Məsələlərini Tənzimləmə Agentliyinin hesabına köçürülməsi | “Azərenerji” ASC, “Azərişıq” ASC | Energetika Nazirliyinin tabeliyində Enerji Məsələlərini Tənzimləmə Agentliyi | 2024-cü il 1 yanvar - 2025-ci il 30 iyun | Energetika Nazirliyinin Kollegiyasının 2018-ci il 5 mart tarixli 2 nömrəli Qərarı ilə təsdiq edilmiş | Tənzimləmə haqqının Energetika Nazirliyinin tabeliyində Enerji Məsələlərini Tənzimləmə Agentliyinin hesabına köçürülməsinin təmin edilməsi | |

| Tədbirin adı | Əsas icraçı orqan (qurum) | Digər icraçılar | İcra müddəti | Nəticə indikatorları | | |
|---|---|---|---|---|---|---|
| | | | | ilkin nəticələr | aralıq nəticələr | yekun nəticələr |
| | | | | “Elektrik, istilik enerjisi və qaz təchizatı sahələrində fəaliyyət göstərən müəssisələrin Enerji Məsələlərini Tənzimləmə Agentliyinə ödədikləri haqqın məbləğinin hesablanması və ödənilməsi Qaydası”na uyğun olaraq tədbirlərin həyata keçirilməsi | | |
| **Prioritet 2. Qanunun 42.1.2-ci maddəsinə uyğun olaraq ikinci mərhələdə (2025-ci il iyulun 1-dən 2028-ci il iyunun 30-dək) tədbirlərin həyata keçirilməsi** | | | | | | |
| **Tədbir 2.1.** İkinci mərhələ üçün nəzərdə tutulan müvəqqəti topdan-satış bazarı qaydaları əsasında elektrik enerjisinin topdansatış bazarının fəaliyyətini təşkil etmək məqsədilə ötürücü sistem operatorunun tabeliyində ayrıca hüquqi şəxs kimi bazar operatorunun yaradılması barədə təkliflərin təqdim edilməsi | Energetika Nazirliyi | İqtisadiyyat Nazirliyi, “Azərenerji” ASC | 2025-ci il 1 iyul – 31 dekabr | Hüquqi akt layihəsinin hazırlanması | Hüquqi akt layihəsinin razılaşması | Hüquqi akt layihəsinin təqdim edilməsi |
| **Tədbir 2.2.** Bazar operatoru tərəfindən bütün istehsalçılardan (“Elektrik enerjisi istehsalında bərpa olunan | “Azərenerji” ASC | Energetika Nazirliyinin tabeliyində | 2025-ci il 1 iyul - 2028-ci il | Proqram təminatının və kadr potensialının | Proqram təminatının və kadr potensialının | Proqram təminatının tətbiqi və kadr |

| Tədbirin adı | Əsas icraçı orqan (qurum) | Digər icraçılar | İcra müddəti | Nəticə indikatorları | | |
|---|---|---|---|---|---|---|
| | | | | ilkin nəticələr | aralıq nəticələr | yekun nəticələr |
| enerji mənbələrindən istifadə haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, elektrik enerjisini zəmanətli alıcıya satan istehsalçılar istisna olmaqla) elektrik enerjisinin satın alınması və bütün təchizatçılara satılması üçün proqram təminatının və kadr potensialının formalaşdırılması | | Enerji Məsələlərini Tənzimləmə Agentliyi | 30 iyun | formalaşdırılması üçün maliyyə vəsaiti ayrılması | formalaşdırılması üçün məsləhətçi şirkətlərin cəlb olunması | potensialının gücləndirilməsi |
| **Tədbir 2.3.** Bazar operatoru tərəfindən bütün istehsalçılardan (“Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, elektrik enerjisini zəmanətli alıcıya satan istehsalçılar istisna olmaqla) elektrik enerjisinin alınması | “Azərenerji” ASC | Energetika Nazirliyi, İqtisadiyyat Nazirliyi | 2026-cı il 1 yanvar - 2028-ci il 30 iyun | Proqram təminatının test rejimində tətbiqi, elektrik enerjisi istehsalçılarının məlumatlandırılması | Elektrik enerjisinin satın alınmasının həyata keçirilməsi | |
| **Tədbir 2.4.** Elektrik şəbəkəsinə dair qaydalara və ikinci mərhələ üçün nəzərdə tutulan müvəqqəti topdansatış bazarı qaydalarına uyğun olaraq, ötürücü və paylayıcı sistem operatorları tərəfindən elektrik enerjisinin ötürülməsi və paylanması fəaliyyətlərinin həyata keçirilməsi | “Azərenerji” ASC (ötürücü sistem operatoru qismində), “Azərişıq” ASC (paylayıcı sistem operatoru qismində) | Energetika Nazirliyinin tabeliyində Enerji Məsələlərini Tənzimləmə Agentliyi | 2025-ci il 1 iyul - 2028-ci il 30 iyun | Elektrik enerjisinin ötürülməsi və paylanması fəaliyyətlərinin həyata keçirilməsi | | |

| Tədbirin adı | Əsas icraçı orqan (qurum) | Digər icraçılar | İcra müddəti | Nəticə indikatorları | | |
|---|---|---|---|---|---|---|
| | | | | ilkin nəticələr | aralıq nəticələr | yekun nəticələr |
| **Tədbir 2.5.** Tariflərin, o cümlədən elektrik enerjisinin ötürülməsi, elektrik enerjisinin paylanması, bazar operatorunun xidmətlərinin və səlahiyyətli təchizatçı tərəfindən elektrik enerjisinin təchizatı tariflərinin tənzimlənməsi | Tarif (qiymət) Şurası | İqtisadiyyat Nazirliyi, Energetika Nazirliyi, Maliyyə Nazirliyi | 2025-ci il 1 iyul - 2028-ci il 30 iyun | Qiymətlərə (tariflərə) dair təkliflərin verilməsi | Qiymətlərə (tariflərə) dair təkliflərin müzakirəsi | Qiymətlərin (tariflərin) müəyyən edilməsi |
| **Tədbir 2.6.** Aşağıdakı birtipli müqavilələrin təsdiq edilməsi:<br>1. elektrik enerjisi bazarının subyektləri arasında bağlanılan ikitərəfli alqı-satqı müqaviləsi;<br>2. mərkəzləşdirilmiş bazarda iştirak etmək üçün bazar operatoru ilə bağlanılan müqavilə;<br>3. mərkəzləşdirilmiş bazarda bağlanılan elektrik enerjisinin alqı-satqı müqaviləsi;<br>4. balanslaşdırıcı elektrik enerjisi bazarında iştirak etmək üçün ötürücü sistem operatoru ilə bağlanılan müqavilə;<br>5. elektrik enerjisinin qeyri-balansının tənzimlənməsi üçün ötürücü sistem operatoru ilə bağlanılan müqavilə;<br>6. köməkçi xidmətlərin göstəril-məsi üçün ötürücü sistem operatoru ilə bağlanılan müqavilə | Energetika Nazirliyi | Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, "Azərenerji" ASC, "Azərişıq" ASC | 2028-ci il 1 yanvar - 30 iyun | Müqavilə layihələrinin hazırlanması | Müqavilə layihələrinin razılaşdırılması | Müqavilələrin təsdiq edilməsi |

| Tədbirin adı | Əsas icraçı orqan (qurum) | Digər icraçılar | İcra müddəti | Nəticə indikatorları | | |
|---|---|---|---|---|---|---|
| | | | | ilkin nəticələr | aralıq nəticələr | yekun nəticələr |
| **Tədbir 2.7.** Qanunun 1.1.62-ci və 6-cı maddələri ilə müəyyən edilmiş tənzimləyicinin fəaliyyətinin təmin olunması ilə bağlı normativ hüquqi akt layihələrinin hazırlanması və təqdim edilməsi | Energetika Nazirliyi | Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi | 2028-ci il 1 yanvar - 30 iyun | Normativ hüquqi akt layihələrinin hazırlanması | Normativ hüquqi akt layihələrinin razılaşdırılması | Normativ hüquqi akt layihələrinin təqdim edilməsi |
| **Tədbir 2.8.** Bazar subyektlərinin maarifləndirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi | Energetika Nazirliyinin tabeliyində Enerji Məsələlərini Tənzimləmə Agentliyi | Energetika Nazirliyi, İqtisadiyyat Nazirliyi, “Azərenerji” ASC, “Azərişıq” ASC | 2025-ci il 1 iyul - 2028-ci il 30 iyun | Təlim və seminarların keçirilməsi, kütləvi informasiya vasitələrində məlumatların yerləşdirilməsi | | |
| **Tədbir 2.9.** Elektrik enerjisinin topdan-satış bazarının müxtəlif komponentlərinin (ikitərəfli müqavilələr bazarı, mərkəzləşdirilmiş bazar, balanslaşdırıcı bazar, köməkçi xidmətlər bazarı) tətbiqi üçün proqram təminatının və kadr potensialının formalaşdırılması | “Azərenerji” ASC | Energetika Nazirliyinin tabeliyində Enerji Məsələlərini Tənzimləmə Agentliyi | 2025-ci il 1 iyul - 2028-ci il 30 iyun | Proqram təminatının və kadr potensialının formalaşdırılması üçün maliyyə vəsaiti ayrılması | Proqram təminatının və kadr potensialının formalaşdırılması üçün məsləhətçi şirkətlərin cəlb olunması | Proqram təminatının tətbiqi və kadr potensialının gücləndirilməsi |
| **Tədbir 2.10.** Qanunun 10-cu maddəsində nəzərdə tutulan tənzimləmə haqqının Energetika Nazirliyinin tabeliyində Enerji Məsələlərini Tənzimləmə Agentliyinin hesabına köçürülməsi | Müvafiq subyektlər (“Azərenerji” ASC, “Azərişıq” ASC, elektrik enerjisinin | Energetika Nazirliyinin tabeliyində Enerji Məsələlərini Tənzimləmə Agentliyi | 2025-ci il 1 iyul - 2028-ci il 30 iyun | Energetika Nazirliyinin Kollegiyasının 2018-ci il 5 mart tarixli 2 nömrəli Qərarı ilə təsdiq edilmiş | Tənzimləmə haqqının Energetika Nazirliyinin tabeliyində Enerji Məsələlərini Tənzimləmə Agentliyinin hesabına köçürülməsinin təmin edilməsi | |

| Tədbirin adı | Əsas icraçı orqan (qurum) | Digər icraçılar | İcra müddəti | Nəticə indikatorları | | |
|---|---|---|---|---|---|---|
| | | | | ilkin nəticələr | aralıq nəticələr | yekun nəticələr |
| | istehsalçıları və təchizatçıları) | | | “Elektrik, istilik enerjisi və qaz təchizatı sahələrində fəaliyyət göstərən müəssisələrin Enerji Məsələlərini Tənzimləmə Agentliyinə ödədikləri haqqın məbləğinin hesablanması və ödənilməsi Qaydası”na uyğun olaraq tədbirlərin həyata keçirilməsi | | |
| **Prioritet 3. Qanunun 42.1.3-cü maddəsinə uyğun olaraq üçüncü mərhələdə (2028-ci il iyulun 1-dən) tədbirlərin həyata keçirilməsi** | | | | | | |
| **Tədbir 3.1.** Qanunun 42.3-cü və 42.4-cü maddələrinə uyğun olaraq birinci və ikinci mərhələ üzrə nəzərdə tutulmuş tədbirlərin icra vəziyyətinin təhlili əsasında üçüncü mərhələ üzrə yol xəritəsinin hazırlanması və təqdim edilməsi | Energetika Nazirliyi | İqtisadiyyat Nazirliyi, “Azərenerji” ASC, “Azərişıq” ASC | 2028-ci il 1 iyul - 1 noyabr | Yol xəritəsinin hazırlanması | Yol xəritəsinin razılaşdırılması | Yol xəritəsinin təqdim edilməsi |
| **Tədbir 3.2.** Bazar subyektlərinin maarifləndirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi | Energetika Nazirliyinin tabeliyində Enerji Məsələlərini | Energetika Nazirliyi, İqtisadiyyat Nazirliyi, | 2028-ci il iyulun 1-dən mütəmadi | Təlim və seminarların keçirilməsi, kütləvi informasiya vasitələrində məlumatların yerləşdirilməsi | | |

| Tədbirin adı | Əsas icraçı orqan (qurum) | Digər icraçılar | İcra müddəti | Nəticə indikatorları | | |
|---|---|---|---|---|---|---|
| | | | | ilkin nəticələr | aralıq nəticələr | yekun nəticələr |
| | Tənzimləmə Agentliyi | “Azərenerji” ASC, “Azərişıq” ASC | | | | |

---